# MÜLƏMMƏ

Nəbati Əbülqasım

Pdfləşdirən: kitablar sayti
http://www.kitablar.com

Ey xösrəvi-məhruyan,
Gəl bircə gülüstanə,
Ta mehri-rüxət pərtöv[2]
Salsın gülü reyhanə.

On nərkisi-caduyət[3]
Saldı məni səhrayə,
Əbruyi-kəmandarət
Etdi məni divanə.

Saqi, zi kərəm cami,
Lütf eylə məni-zarə,
Dər dövri-sərət gərdəm[4],
Bir dövr elə məstanə.

Bərxizü xuraman gün[5],
Ol qaməti-dilcuyət.
İn aşiqi-Məcnunra
Bircə dolu peymanə.

Bügzər bəsəri-Leyli[6],
Bu dinü bu məzhəbdən,
Xaki-rahi-rindan şo[7],
Ol xadimi-meyxanə.

Düş əz qəmi-dil yek dəm[8]
Bir dağə güzar etdim,
Oftad rəhəm nagəh[9]
Bir türfə biyabanə.

Qurbani-sərət, saqi,
Bax bir məni-məxmurə,
Billahi, qümil əccil, [10]
Döndü ürəyim qanə.

Xali-həbəşirəngət
Etdi günümü qarə,
On ləln-şəkərpaşəq[11]
Bir rəhmə gəlir ya nə?

Ey bülbüli-qəmdidə,
Gəldi yenə fəsli-gül,
Bərxizü bezən çəh-çəh[12],
Gəl şur ilə əfğanə.

Şirini-şəkər ləb key
Dışqarı çıxar evdən.
Ta qülqülə əndazəd[13]
Bu günbədi-gərdunə.

Dər rixtəni-xunəm[14]
Təcil eləmə çox da,
Nahəqküşi, xunrizi
Layiqdimi sultanə?

Ey kafəri-səngindil,
Bir pərdə götür üzdən.
Ta tənə zənəd hüsnət [15]
Xurşidi-dirəxşanə.

Rəftən zi səri-kuyət[16]
Bir əmrdi çox müşkül.
Haşa ki, coda əz şəm[17]
Hərgiz ola pərvanə.

Əz tari-xəmi-zülfət[18]
Sal boynuma zənciri,
Dər guşeyi-əbruyət[19]
Saldı məni zindanə.

On sağəri-zərrinra[20]
Saqi mənə versin bir.
Tainki zənəm payi[21]
Bu mülki-Süleymanə.

Məstanə biyavər mey[22],
Sərgərm elə üşşaqi,
Yek dəm bekün ehsani[23]
Bu cəmi pərişanə.

Bərxiz, Nəbatira
Bir cam ilə qıl sərməst,
Ongah tamaşa gün
Bu mürği-xoşəlhanə. [24]

[İstinad 1: Misraları müxtəlif dillərdə yazılan şer]
[İstinad 2: Üzün günəş kimi işıq]
[İstinad 3: O cadu nərgizin (gözün)]
[İstinad 4: Başına dolanım]
[İstinad 5: Dur, nazlan]
[İstinad 6: Səni Leyliyə and verirəm]
[İstinad 7: Rindlərin yolunun torpağı ol]
[İstinad 8: Dünən ürək qəmindən bir dəm]
[İstinad 9: Qəflətən yolum düşdü]
[İstinad 10: Sən allah, dur, tələs]
[İstinad 11: Şəkərsəpən dodaqların
[İstinad 12: Qalx, cəh-cəh vur
[İstinad 13: Cəh-cəh edib səs sala]
[İstinad 14: Qanııı axıtmaqda]
[İstinad 15: Gözəlliyin tənə vursun]
[İstinad 16: Səniy küçəndən getmək]
[İstinad 17: Ola bilməz ki, şəmdən ayrı]
[İstinad 18: Saçının qıvrım tellərindən]
[İstinad 19: Qaşlarının küncündə]
[İstinad 20: O qızıl piyaləni]
[İstinad 21: Ta bir təpik vuram]
[İstinad 22: Sərxoş-sərxoş şərab ver]
[İstinad 23: Bir dəfə yaxşılıq elə]
[İstinad 24: Sonra tamaşa elə
Bu xoşsəsli quşa]